

# Kitabxanamız zənginləşir

*Göyçay rayon MKS-nin tərkibində 63 kitabxana bunlardan 2 uşaq, 2 şəhər, 1 gənclər, 1 mərkəzi kitabxana, 57 kənd kitabxanası fəaliyyət göstərir. Həmin müəssisələrdə 19 nəfər ali təhsilli, 80 nəfər orta ixtisas təhsilli, 44 nəfər orta təhsilli kadrlardır.*

Rayon üzrə kitab fondu 419130 nüsxə, oxucuların sayı 33712 nəfər olmuşdur. Mərkəzi kitabxananın abonent şöbəsi oxuculara xidmət edərək onları hərbi vətənpərvərliyə, milli mənəvi dəyərlərə yiyələnməyə, oxucuların estetik tərbiyəsinə rəhbərlik etməyi öz qarşısına məqsəd qoyur. Mərkəzi kitabxanada oxucuları kitabxanaya cəlb etmək üçün, kitabxanada yeni ədəbiyyat sərgiləri, mövzu sərgiləri təşkil olunmuş, oxucu konfransları, ədəbi-bədii gecələr, görüşlər və mühazirələr keçirilmişdir.

Mərkəzi kitabxanada Xocalı fəryadı, S.Vurğunun 100 illiyi, S.Rüstəmin 100 illiyi ilə əlaqədar "Şair, nə tez qocaldın sən", "Cənnət görmək istəyən Azərbaycana gəlsin" başlıqları altında poeziya gecəsi, 8 mart Beynəlxalq Qadınlar günü münasibətilə musiqili tədbir, xalqımızın milli bayramlarından biri olan Novruz bayramı münasibətilə "Xonçalı Novruz" bayram şənliyi, "Tarixə dönmüş ömür" - Ümummilli liderimiz H.Əliyevin xatirəsinə həsr olunmuş tədbir, faşizm üzərində qələbənin 62-ci ildönümü ilə əlaqədar Göyçay müharibə veteranları ilə görüş, Vidadi Babanlının 80 illiyi ilə əlaqədar poeziya gecəsi, M.S.Ordubadinin135 illiyi ilə əlaqədar yaradıcılıq gecəsi, "Qılınc və qələm" əsərinin müzakirəsi, Almaz İldırımın 100 illiyi ilə əlaqədar "Azərbaycanın didərgin salınmış övladı" adlı tədbir keçirilmişdir.

Fondumuzda cəmi 41 min nüsxə latın qrafikalı ədəbiyyat var. Bunlardan 36785 nüsxəsi Prezident sərəncamı ilə alınan kitablardır. 2007-ci ildə 4819 nüsxə kitab alınıb. Kitabxananın latın qrafikalı ali məktəb dərsliklərinə, təbiət, tibb elmlərinə, texniki ədəbiyyatlara ehtiyacı var. Kitabxanada Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" 20 aprel 2007-ci il tarixli sərəncamı kitabxana işçilərinin böyük sevincinə səbəb olmuşdur. Bu fərman kitabxana işinə dair çox böyük əhəmiyyət kəsb edir. Fərmanda kitabxana işinin bütün sahələrinə dövlət qayğısı var. Kitabxana işçiləri bu sərəncamla əlaqədar cənab Prezidentə öz təşəkkürünü bildirir.

**Rövşən BALAYEVA,**
**Göyçay rayon**
**MKS-in direktoru**



